**BAXŞEYİŞ ABBASOĞLU**

# AĞDAM AĞRILARI

**"Şuşa" nəşriyyatı**
**Bakı - 2003**

A 03 (2003)

Redaktoru **VASİF QULİYEV**

“Ağdam ağrıları” – Ağdamın Qarabağ müharibəsindəki itkiləri haqqında məlumat kitabı Azərbaycan Respublikası Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Ağdam rayon şöbəsi idarə heyətinin qərarı ilə nəşr olunur.

**BAXŞEYİŞ ABBASOĞLU.** Ağdam ağrıları. “Şuşa” nəşriyyatı, Bakı, 2003 – 152 s.

“Ağdam ağrıları” kitabında 1988-ci ilin fevral ayından alovlanmış Ermənistan – Azərbaycan (Qarabağ) müharibəsində 5 il gecəli – gündüzlü düşmənin qarşısında basılmaz qalaya çevrilmiş Ağdam rayonunun ağrı – acıları, onun itkiləri, vurulan ziyanları, habelə qəhrəmanlıqları xalqımızın qürur və iftixar rəmzinə çevrilən igid və cəsur şəhid ağdamlı döyüşçülərin və mülki vətəndaşların haqqında məlumat əks olunur.

Hər bir fakt, rəqəm haqqında dəqiq məlumat rəsmi mənbələrdən, hər bir şəhid döyüşçü barəsində məlumat onların xidmət etdikləri hərbi hissələrdən, Ağdam rayon İcra Hakimiyyəti Başçısının ərazi nümayəndəliklərindən, habelə şəhidlərin yaxınlarından əldə edilmişdir.

Kitabdakı məlumatların toplanmasında köməyi olmuş hər kəsə minnətdarlığımızı bildiririk!

**A 051 (L- 041)**
**051 – 03 (129)2003 Sifarişlə**

**“Şuşa” nəşriyyatı**
**Bakı - 2003**

# AĞDAM – TARİXİMİZİN SİRDAŞI
## (Ön söz əvəzi)

Ağdam rayonu Azərbaycanın qədim, füsunkar, təbiətli, münbit torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ yüksəkliyinin şimal – şərq ətəklərində, Kür – Araz ovalığının qərbində yerləşir.

Sahəsi 1094 kvadrat kilometr olmaqla relyefi əsasən düzənlik və qismən dağlıqdır.

Dəniz səviyyəsindən yüksəkliyi 410 metr, maksimum yüksəkliyi 1365 metrdir. İqlimi, əsasən, mülayim isti, quraq subtropikdir. Dağətəyi yerlərdə yüksəklik artdıqca iqlim mülayimləşir. Ən çox yağıntı dağətəyi sahələrə düşür. İllik yağıntı 300 – 550 mm-dir.

Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır.

Ağdam rayonunda çoxlu sayda tariximizin şahidi olan memarlıq abidələri var. Ağdam şəhərinin şimal – qərbində - Xındırıstan kəndində yerləşən Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı – Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və sair memarlıq abidələri bu yurdun qədim Azərbaycan torpağı olduğunu təsdiq edir. Tariximizin sirdaşı, ev ünvanı olan bu abidələr Ağdamın keçmişinin qaranlıqlarına işıq saçaraq dünənindən bu gününə soraq verir.

1930-cu ildə Ağdam inzibati rayonu təşkil olunmuşdur.

Ağdam rayonu Ağcabədi, Bərdə, Tərtər, Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olan Ağdərə (keçmiş Mardakert), Əsgəran və Xocavənd (keçmiş Martuni) rayonları ilə həmsərhəddir.

Rayonun mərkəzi olan Ağdam Bakıdan 358 kilometr, Qarqar çayının sahilindən 3 kilometr aralı, Qarabağ düzünün cənub – qərbindədir.

Ağdam ağır yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayondur.

Ağdamda dəzgah avadanlıqları, arekosmik və rabitə cihazları, metiz – furnitur. Traktor və avtomobil təmiri, asfalt, konserv, yağ – pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalşa fabriki, taxıl məhsulları. Tikinti materialları və ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət – xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi və Ü. Hacıbəyov adına musiqi texnikumları, Ə. Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı fəaliyyət göstərirdi.

Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi. Kənd təsərrüfatının istiqaməti isə əsasən pambıqçılıq, üzümçülük və heyvandarlıqdır.

Mövcud dövlətlərini qədim Azərbaycan torpaqları üzərində qurmuş Ermənistan Dağlıq Qarabağı özünə birləşdirmək məqsədilə 1988-ci ilin fevral ayından başladığı müharibəyə Ağdam rayonu da cəlb olunmuş, hadisələrin ilk günlərindən ən böyük ağırlıq Ağdamın üstünə düşmüşdür.

1988-ci ilin son aylarında Ermənistandan – öz dədə - baba yurd – yuvasından, daha sonra isə Dağlıq Qarabağdan doğma ocaqlarından perik salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdir.

1992-ci ildə Dağlıq Qarabağı bütünlüklə işğal edən Ermənistan bununla kifayətlənməyərək Dağlıq Qarabağın ətraf rayonlarına da dişini qıcadı.

Ermənistanın separatçı hakimiyyəti rus hərbi birləşmələrinin yaxından köməyi, bilavasitə iştirakı ilə Şuşa, Laçın, Kəlbəcər rayonlarını işğal etdikdən sonra Ağdamı da hədəf seçdilər. Ermənilər bu rayonu da ələ keçirmək üçün irimiqyaslı hücum əməliyyatlarına başladılar. 1993-cü il iyun ayının 11 –dən başlayaraq bu hücum əməliyyatı həmin ilin iyul ayının 23-də Ağdamın işğalı ilə başa çatdı. 1994-cü ilin may ayının 12-dək davam edən hərbi təcavüz nəticəsində isə ermənilər Ağdam rayonu ərazisinin 846,7 kvadrat kilometrini, yəni, ümumi ərazisinin 77,4 faizini işğal etməyə nail oldular. İşğal edilmiş Ağdam şəhəri və rayonun 87 kəndi bəşər tarixində oxşarı olmayan bir vəhşiliklə darmadağın edilərək yerlə - yeksan edildi.

Ağdamın müdafiəsi uğrunda beş ildən artıq gedən qanlı döyüşlərdə Azərbaycanın beş min nəfərə qədər igid və qəhrəman oğlu həlak olmuş, minlərlə insan fiziki şikəstlik qazanmış, 126 min nəfərdən artıq ağdamlı öz doğma ev – eşiyindən didərgin düşmüşdür.

Hörmətli oxucu!

Sizə sonsuz kədər və ürək ağrısı ilə təqdim etdiyimiz bu müfəssəl məlumatları tərtib edərkən keçirdiyimiz hisslərin yanğısını ovundurmağa, qəlbimizə təsəlli verməyə söz tapmaq çətindir.

Bu inkarolunmaz məlumatlar – işğal olunub, yağmalanmış hər bir ev – eşik, şəhid olmuş, fiziki şikəstlik qazanmış, məcburi köçkünə çevrilmiş insanların taleyi nəinki bir ailənin, böyük bir nəslin, bütün ağdamlıların, Azərbaycanın faciəsidir.

Ötən nəsillərin qızıl əlləri ilə qurub – yaratdıqları Ağdam şəhərində, kəndlərimizdə hər bir divarın daşında ata və babalarımızın alın təri, qeyrəti, odlu nəfəsi, nənələrimizin əməyi, hünəri var. Qurub – yaratmağı özlərinin həyat amalı, məsləki bilmiş neçə - neçə ötən nəslimiz gələcək nəsillərə ürək sözləri kimi ağ şəhərimizi – Ağdamı ucaltmışdılar. Əfsuslar ki, hər bir tarixi abidəsində babalarımızın, nənələrimizin zəhməti, hünəri, qeyrəti yaşayan, hər bir tikintisində ulularımızın doğma yurda məhəbbəti qorunub saxlanan, hünər və qəhrəmanlıq

çarşısı olan Ağdamımız, onunkəndləri düşmən tapdağı altında virandır.

Bu sətirləri yazarkən gözlərimizin qarşısında yeni – yeni evlərə köçən ailələrin şadyanalığı, bağ – bağatlı, geniş həyətlərdə, gen – bol evlərdə qurulan toy – düyünlər canlanır...

Gün o gün olacaq! Gün o gün olacaq ki, gözlərimiz önündə canlanan bu xəyal gerçəkliyə dönəcək.

Kitabda göstərdiyimiz bu ağrılı faktlar və rəqəmlər Qarabağın “toy otağı” olmuş Ağdamı Azərbaycanın “yas otağına” çevirmiş milli xəyanətkarlara – müqəssirlərə sanballı ittiham sənədləridir.

Daşı daş üstə qalmayan Ağdamımız on ildir ki, ermәni tapdağındadır. Hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, dəyişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidimiz, musiqi səslərinə möhtac qalmış bərli – bərəkətli torpaqlarımız, ata – babalarımızın uyuduqları məzarıstanlıqlarımız tezliklə azad ediləcək. Ağdamın qara günləri bitəcək, adından həmişə qerur, iftixar duyduğumuz şəhərimizin ağ günləri başlayacaq, onun başının üstündəki qara buludlar çəkiləcək. O gün uzaqda deyil.

## I F Ə S İ L

## TARİXİN DANILMAZ FAKTLARI

# Ermənistan ordusu tərəfindən Ağdam rayonunun işğal olunmuş yaşayış məntəqələri və məcburi köçkün düşmüş əhalisi haqqında

# MƏLUMAT

## (1992 – 1994-cü illər)

| **Sıra № si** | **Yaşayış məntəqəsinin adı** | **Ailənin sayı** | **Əhalinin sayı (nəfərlə)** | **Yaşayış məntəqəsinin işğal olunma tarixi** |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | Sırxavənd kəndi | 228 ailə | 1032 nəfər | 12 mart 1992-ci il |
| 2 | Qaraşlar kəndi | 37 ailə | 179 nəfər | 12 mart 1992-ci il |
| 3 | Bəşirlər kəndi | 32 ailə | 173 nəfər | 12 mart 1992-ci il |
| 4 | Manikli kəndi | 214 ailə | 976 nəfər | 12 mart 1992-ci il |
| 5 | Xatınbəyli kəndi | 81 ailə | 331 nəfər | 12 mart 1992-ci il |
| 6 | Baş Güneypəyə kəndi | 194 ailə | 833 nəfər | 12 mart 1992-ci il |
| 7 | Abdal kəndi | 328 ailə | 1314 nəfər | 4 sentyabr 1992-ci il |
| 8 | Gülablı kəndi | 409 ailə | 1420 nəfər | 4 sentyabr 1992-ci il |
| 9 | Mərzili kəndi | 1310 ailə | 6458 nəfər | 11 iyun 1993-cü il |
| 10 | Cinli kəndi | 69 ailə | 299 nəfər | 11 iyun 1993-cü il |
| 11 | Yeni Qaralar kəndi | 104 ailə | 451 nəfər | 12 iyun 1993-cü il |

| | | | | |
|---|---|---|---|---|
| 12 | Əliağalı kəndi | 446 ailə | 1856 nəfər | 12 iyun 1993-cü il |
| 13 | Əlimədədli kəndi | 251 ailə | 1042 nəfər | 15 iyun 1993-cü il |
| 14 | Xaçındərbənd kəndi | 174 ailə | 735 nəfər | 15 iyun 1993-cü il |
| 15 | Kürdlər kəndi | 98 ailə | 414 nəfər | 15 iyun 1993-cü il |
| 16 | Mollalar kəndi | 129 ailə | 508 nəfər | 15 iyun 1993-cü il |
| 17 | Qalayçılar kəndi | 337 ailə | 1476 nəfər | 15 iyun 1993-cü il |
| 18 | Çullu kəndi | 127 ailə | 639 nəfər | 15 iyun 1993-cü il |
| 19 | Boyəhmədli kəndi | 409 ailə | 1632 nəfər | 26 iyun 1993-cü il |
| 20 | Qızıllı kəndi | 346 ailə | 1219 nəfər | 26 iyun 1993-cü il |
| 21 | Sofulu kəndi | 154 ailə | 521 nəfər | 26 iyun 1993-cü il |
| 22 | Mollalar kəndi | 148 ailə | 539 nəfər | 26 iyun 1993-cü il |
| 23 | Papravənd kəndi | 519 ailə | 2172 nəfər | 26 iyun 1993-cü il |
| 24 | Qarapirim kəndi | 199 ailə | 742 nəfər | 26 iyun 1993-cü il |
| 25 | Şıxbabalı kəndi | 472 ailə | 1898 nəfər | 4 iyul 1993-cü il |
| 26 | Muğanlı kəndi | 416 ailə | 1524 nəfər | 4 iyul 1993-cü il |
| 27 | Bağbanlar kəndi | 131 ailə | 893 nəfər | 4 iyul 1993-cü il |
| 28 | Pirzadlı kəndi | 82 ailə | 431 nəfər | 4 iyul 1993-cü il |
| 29 | İsmayılbəyli kəndi | 262 ailə | 1253 nəfər | 4 iyul 1993-cü il |
| 30 | Saybalı kəndi | 350 ailə | 1585 nəfər | 4 iyul 1993-cü il |
| 31 | Muğanlı kəndi | 180 ailə | 807 nəfər | 4 iyul 1993-cü il |
| 32 | Novruzlu kəndi | 698 ailə | 2666 nəfər | 4 iyul 1993-cü il |
| 33 | Qasımlı kəndi | 258 ailə | 914 nəfər | 7 iyul 1993-cü il |
| 34 | Qaradağlı kəndi | 176 ailə | 615 nəfər | 7 iyul 1993-cü il |
| 35 | Poladlı kəndi | 151 ailə | 502 nəfər | 7 iyul 1993-cü il |
| 36 | Şelli kəndi | 189 ailə | 811 nəfər | 7 iyul 1993-cü il |
| 37 | Qurdlar kəndi | 132 ailə | 470 nəfər | 7 iyul 1993-cü il |
| 38 | Qiyaslı kəndi | 941 ailə | 3631 nəfər | 22 iyul 1993-cü il |
| 39 | Xıdırlı kəndi | 855 ailə | 3284 nəfər | 22 iyul 1993-cü il |
| 40 | Çuxurməhələ kəndi | 100 ailə | 395 nəfər | 22 iyul 1993-cü il |
| 41 | Ağdam şəhəri | 7053 ailə | 29551 nəfər | 23 iyul 1993-cü il |
| 42 | Seyidli kəndi | 1069 ailə | 4647 nəfər | 23 iyul 1993-cü il |
| 43 | Sarhacılı kəndi | 608 ailə | 2532 nəfər | 23 iyul 1993-cü il |
| 44 | Bozpapaqlar kəndi | 139 ailə | 569 nəfər | 23 iyul 1993-cü il |
| 45 | Ətyeməzli kəndi | 399 ailə | 1529 nəfər | 23 iyul 1993-cü il |
| 46 | Keştazlı kəndi | 399 ailə | 1609 nəfər | 23 iyul 1993-cü il |
| 47 | Əhmədavar kəndi | 510 ailə | 1820 nəfər | 23 iyul 1993-cü il |
| 48 | Sarcalı kəndi | 224 ailə | 983 nəfər | 23 iyul 1993-cü il |

| | | | | |
|---|---|---|---|---|
| 49 | Qarazeynallı kəndi | 199 ailə | 834 nəfər | 23 iyul 1993-cü il |
| 50 | Qullar kəndi | 178 ailə | 882 nəfər | 23 iyul 1993-cü il |
| 51 | Kəngərli kəndi | 400 ailə | 1621nəfər | 23 iyul 1993-cü il |
| 52 | Ağdamkənd kəndi | 308 ailə | 1659 nəfər | 23 iyul 1993-cü il |
| 53 | Qaradağlı kəndi | 209 ailə | 1.075 nəfər | 23 iyul 1993-cü il |
| 54 | Muradbəyli kəndi | 329 ailə | 1637 nəfər | 23 iyul 1993-cü il |
| 55 | Əlimərdanlı kəndi | 103 ailə | 487 nəfər | 23 iyul 1993-cü il |
| 56 | Pərioğlular kəndi | 123 ailə | 659 nəfər | 23 iyul 1993-cü il |
| 57 | Tillər kəndi | 130 ailə | 810 nəfər | 23 iyul 1993-cü il |
| 58 | Çərik kəndi | 40 ailə | 246 nəfər | 23 iyul 1993-cü il |
| 59 | Acarlı kəndi | 28 ailə | 122 nəfər | 23 iyul 1993-cü il |
| 60 | Maqsudlu kəndi | 344 ailə | 1436 nəfər | 26 iyul 1993-cü il |
| 61 | Tərneft kəndi | 135 ailə | 602 nəfər | 26 iyul 1993-cü il |
| 62 | Şahbulaq kəndi | 29 ailə | 216 nəfər | 26 iyul 1993-cü il |
| 63 | Şişpapaqlı kəndi | 144 ailə | 509 nəfər | 30 iyul 1993-cü il |
| 64 | Eyvazxanbəyli kəndi | 345 ailə | 1403 nəfər | 30 iyul 1993-cü il |
| 65 | Talışlar kəndi | 109 ailə | 398 nəfər | 30 iyul 1993-cü il |
| 66 | Tükəzbanlı kəndi | 29 ailə | 191 nəfər | 30 iyul 1993-cü il |
| 67 | Salahsəmədli kəndi | 26 ailə | 135 nəfər | 30 iyul 1993-cü il |
| 68 | Təpəməhlə kəndi | 72 ailə | 142 nəfər | 30 iyul 1993-cü il |
| 69 | Göytəpə kəndi | 233 ailə | 890 nəfər | 30 iyul 1993-cü il |
| 70 | Kosalar kəndi | 115 ailə | 4699 nəfər | 30 iyul 1993-cü il |
| 71 | Şirvanlı kəndi | 47 ailə | 191 nəfər | 30 iyul 1993-cü il |
| 72 | Qaraqaşlar kəndi | 108 ailə | 435 nəfər | 30 iyul 1993-cü il |
| 73 | Abdınlı kəndi | 30 ailə | 118 nəfər | 30 iyul 1993-cü il |
| 74 | Salahlı kəndi | 335 ailə | 1185 ailə | 29 yanvar 1994-cü il |
| 75 | Yusifcanlı kəndi | 625 ailə | 2200 nəfər | 12 aprel 1994 –cü il |
| 76 | Güllücə kəndi | 523 ailə | 2143 nəfər | 16 aprel 1994-cü il |
| 77 | Suma kəndi | 310 ailə | 1286 nəfər | 16 aprel 1994-cü il |
| 78 | Tağıbəyli kəndi | 232 ailə | 910 nəfər | 16 aprel 1994-cü il |
| 79 | İlxıçılar kəndi | 260 ailə | 1050 nəfər | 16 aprel 1994-cü il |
| 80 | Nəmirli kəndi | 157 ailə | 644 nəfər | 23 aprel 1994 –cü il |
| 81 | Şotlanlı kəndi | 279 ailə | 1382 nəfər | 23 aprel 1994 –cü il |
| 82 | Umudlu kəndi | 67 ailə | 280 nəfər | 23 aprel 1994 –cü il |
| 83 | Şurabad kəndi | 269 ailə | 1239 nəfər | 23 aprel 1994 –cü il |
| 84 | Cəvahirli kəndi | 114 ailə | 482 nəfər | 25 aprel 1994-cü il |

| | | | | |
|---|---|---|---|---|
| 85 | Kökəltmə məntəqəsi | 57 ailə | 274 nəfər | 26 aprel 1994-cü il |
| 86 | Baş Qərvənd kəndi | 562 ailə | 2247 nəfər | 26 aprel 1994-cü il |
| 87 | Şıxlar kəndi | 379 ailə | 1651 nəfər | 26 aprel 1994-cü il |

**CƏMİ:** **30.104 ailə 126.014 nəfər**

# Ağdam rayonu üzrə məcburi köçkünlərin cins və yaş qrupları:

### Cins qrupları:

- Məcburi köçkünlərin sayı: - 126.014 nəfər.

onlardan:

- kişilər: - 61.968 nəfər.
- Qadınlar: - 64.046 nəfər.

### Yaş qrupları:

1. 1-15 yaşında olanlar: - 38.954 nəfər.

Onlardan:

- oğlanlar: - 19.326 nəfər.
- qızlar: - 19.628 nəfər.

2. 16-22 yaşında kişilər: - 36.266 nəfər.
3. 16-57 yaşında olan qadınlar: - 37.110 nəfər.
4. 63yaşından yuxarı olan kişilər: - 695 nəfər.
5. 58 yaşından yuxarı qadınlar: - 7.589 nəfər.

# Ağdam rayonu üzrə məcburi köçkünlərin milli tərkibi:

- azərbaycanlılar: - 125.752 nəfər.
- ruslar: - 77 nəfər.
- ləzgilər: - 10 nəfər.

  türklər: - 100 nəfər.
- ukraynalılar: - 42 nəfər.
- yəhudilər: - 1 nəfər.
- tatarlar 6 – 8 ailə.
- digər millətlərdən: - 24 nəfər

# Ağdam rayonu üzrə məcburi köçkünlərin respublikamızın şəhər və rayonlarında müvəqqəti məskunlaşdıqları barədə 2003-cü il yanvarın 1-nə olan MƏLUMAT:

| Sıra № si | Məcburi köçkünlərin müvəqqəti yaşadıqları şəhər və ya rayonun adı | Ailənin sayı | Əhalinin sayı (nəfərlə) |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1 | Abşeron rayonu | 72 ailə | 342 nəfər |
| 2 | Ağdam rayonu | 4.111 ailə | 17.326 nəfər |
| 3 | Ağdaş rayonu | 235 ailə | 1.047 nəfər |
| 4 | Ağcabədi rayonu | 1.532 ailə | 6.550 nəfər |
| 5 | Ağsu rayonu | 39 ailə | 179 nəfər |
| 6 | Ağstafa rayonu | 1 ailə | 5 nəfər |
| 7 | Bakı şəhəri | 9.561 ailə | 38.887 nəfər |
| 8 | Balakən rayonu | 11 ailə | 42 nəfər |
| 9 | Beyləqan rayonu | 254 ailə | 1.196 nəfər |
| 10 | Bərdə rayonu | 8.692 ailə | 35799 nəfər |
| 11 | Biləsuvar rayonu | 26 ailə | 133 nəfər |
| 12 | Cəlilabad rayonu | 18 ailə | 94 nəfər |
| 13 | Daşkəsən rayonu | 1 ailə | 7 nəfər |
| 14 | Əli – Bayramlı rayonu | 39 ailə | 158 nəfər |
| 15 | Gədəbəy rayonu | 1 ailə | 3 nəfər |
| 16 | Gəncə şəhəri | 193 ailə | 795 nəfər |
| 17 | Goranboy rayonu | 26 ailə | 103 nəfər |
| 18 | Göyçay rayonu | 129 ailə | 564 nəfər |
| 19 | Hacıqabul rayonu | 15 ailə | 76 nəfər |
| 20 | Xaçmaz rayonu | 5 ailə | 20 nəfər |
| 21 | Xanlar rayonu | 7 ailə | 33 nəfər |
| 22 | İmişli rayonu | 95 ailə | 429 nəfər |
| 23 | İsmayıllı rayonu | 167 ailə | 812 nəfər |
| 24 | Kürdəmir rayonu | 126 ailə | 561 nəfər |

| | | | |
|---|---|---|---|
| 25 | Qax rayonu | 58 ailə | 276 nəfər |
| 26 | Qaradağ rayonu | 6 ailə | 16 nəfər |
| 27 | Qazax rayonu | 2 ailə | 9 nəfər |
| 28 | Qəbələ rayonu | 73 ailə | 348 nəfər |
| 29 | Quba rayonu | 11 ailə | 41 nəfər |
| 30 | Lənkəran rayonu | 7 ailə | 29 nəfər |
| 31 | Masallı rayonu | 13 ailə | 53 nəfər |
| 32 | Mingəçevir şəhəri | 2.567 ailə | 10.713 nəfər |
| 33 | Naftalan rayonu | 23 ailə | 90 nəfər |
| 34 | Naxçıvan MR | 7 ailə | 37 nəfər |
| 35 | Neftçala rayonu | 11 ailə | 52 nəfər |
| 36 | Oğuz rayonu | 106 ailə | 498 nəfər |
| 37 | Rusiya FR | 10 ailə | 45 nəfər |
| 38 | Sabirabad rayonu | 55 ailə | 269 nəfər |
| 39 | Salyan rayonu | 20 ailə | 88 nəfər |
| 40 | Samux rayonu | 3 ailə | 21 nəfər |
| 41 | Saatlı rayonu | 15 ailə | 67 nəfər |
| 42 | Sumqayıt şəhəri | 497 ailə | 2.067 nəfər |
| 43 | Şamaxı rayonu | 45 ailə | 181 nəfər |
| 44 | Şəki rayonu | 247 ailə | 1.163 nəfər |
| 45 | Şəmkir rayonu | 9 ailə | 41 nəfər |
| 46 | Tərtər rayonu | 688 ailə | 3.021 nəfər |
| 47 | Ucar rayonu | 123 ailə | 560 nəfər |
| 48 | Tovuz rayonu | 2 ailə | 8 nəfər |
| 49 | Yevlax rayonu | 880 ailə | 3.807 nəfər |
| 50 | Zaqatala rayonu | 17 ailə | 84 nəfər |
| 51 | Zərdab rayonu | 60 ailə | 181 nəfər |

# Erməni işğalçı ordusu tərəfindən işğal olunmuş Ağdam şəhərində və rayonun kəndlərində dağıdılmış obyektlər, zəbt olunmuş əkin və meşə sahələri haqqında Məlumat:

| **Sıra №-si** | **Obyektlərin adı** | **Sayı** | **Dəymiş zərər (milyao ABŞ dolları ilə)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1 | Yayaşayış evləri | 30.104 ədəd | 2.518 |
| 2 | İctimai binalar | 108 ədəd | 53 |
| 3 | Təhsil müəssisələri | 79 ədəd | 275 |
| 4 | Səhiyyə müəssisələri | 128 ədəd | 501 |
| 5 | Mədəniyyət obyektləri | 67 ədəd | 72 |
| 6 | Sənaye müəsssisələri | 25 ədəd | 257 |
| 7 | Kənd təsərrüfatı müəssisələri | 41 ədəd | 326 |
| 8 | Tarixi-dini abidələr | 4 ədəd | 4.2 |
| 9 | Rabitə obyektləri | 25 ədəd | 207.8 |
| 10 | Ticarət obyektləri | 2.560 ədəd | 66.4 |
| 11 | Tikinti obyektlər | 31 ədəd | 249.9 |
| 12 | Elektrik xətləri | 2.548 km. | 163.1 |
| 13 | Elektrik stansiyaları | 16 ədəd | 54.8 |
| 14 | Qaz kəmərləri | 772 km. | 10.0 |
| 15 | Su kəmərləri | 775 km | 12.7 |
| 16 | Subartezian quyuları | 820 ədəd | 15.3 |
| 17 | Kanalizasiya xətləri | 120 km. | 4.2 |
| 18 | Avtomobil yolları | 150 km. | 20.0 |
| 19 | Dəmir yolları | 40 km. | 4.0 |
| 20 | Aeroport | 1 ədəd | 1.0 |
| 21 | İdman obyektləri | 5 ədəd | 2.5 |
| 22 | Sanatoriya kurort obyektləri | 2 ədəd | 4.0 |
| 23 | Nəqliyyat vasitələri | 90 ədəd | 0.5 |
| 24 | Kənd təsərrüfatı maşın – mexanizmləri | 2.030 ədəd | 150.0 |

| | | | |
|---|---|---|---|
| 25 | Fərdi əmək mənzil –məişət əşyaları | 68.000 ədəd | 75.0 |
| 26 | İribuynuzlu mal – qara | 16.385 ədəd | 5.0 |
| 27 | Davarlar | 87.103 ədəd | 3.8 |
| 28 | Ev quşları | 900.000 ədəd | 2.8 |
| 29 | Meyvə ağacları | 13 hektar | 120.0 |
| 30 | Meşələr | 986 hektar | - |
| 31 | Əkin və otlaq sahələri | 50253 hektar | - |

**Qeyd: İlkin hesablamalara görə Ağdam rayonuna işğal nəticəsində dəyən maddi zərər 5 milyard 179 milyon ABŞ dollarına bərabərdir.**

# II F Ə S İ L

# SÜQUTA GEDƏN YOLUN İZİ...

## XRONİKA... XRONİKA... XRONİKA...

### 1990-cı il

**2 YANVAR –** Ağdam – Şuşa yolu ilə hərəkət edən avtobuslar daşa basılır.

**6 YANVAR –** Ağdam avtovağzalında partlayış baş verir. İki nəfər həlak olur, iki nəfər yaralanır.

**15 YANVAR** - Ağdam rayon xəstəxanasına Xocavənddən iki nəfər yaralı gətirilir.

**30 MAY –** Ağdam – Şuşa marşrutu ilə hərəkət edən 17 maşın daş – qalaq edilir.

**16 İYUL –** Gülablı kəndi atəşə tutulur.

**21 İYUL** – Cinli kəndi atəşə tutulur.

**10 AVQUST –** Tbilisi – Ağdam avtobusu partladılır. On yeddi nəfər həlak olunur.

**14 AVQUST –** Şuşa – Ağdam avtobusu daşa basılır, sürücü yaralanaraq xəstəxanaya düşür.

**22 AVQUST –** Ağdam – Martuni şosesində, Qarqar çayının üstündəki körpü partladılır.

**14 SENTYABR** – Cinli və Gülablı kəndi atəşə tutulur, Xocalıdan Ağdama hərəkət edən yeddi avtomaşın daşa basılır, yeddi nəfər yaralanır.

**3 NOYABR –** Ağbulaq kəndinə basqın edilir.

**15 NOYABR –** Ağdamdan – Şuşaya gedən "Qaz - 24" markalı avtomaşın saxlanılır, sərnişinlər döyülür, sürücü bıçaqla yaralanır.

**20 NOYABR –** Xocavənd rayonunun Qarakənd kəndinin səmasında dövlət xadimlərimizin olduğu "Mİ - 8" vertolyotu vurulur.

**21 NOYABR –** "Mİ -8" vertolyotunda həlak olanların meyidləri Ağdam məscidinə gətirilir.

**29 NOYABR –** Şelli və Cinli kəndlərinə basqın edilir.

**6 DEKABR –** Ağdam – Şuşa yolu ermənilər tərəfindən bağlanılır.

**7 DEKABR –** Gülablı kəndi atəşə tutulur.

**22 DEKABR –** Gülablı kəndi atəşə tutulur.

**31 DEKABR –** Cinli kəndinə soxulan ermənilər çobanlara basqın edirlər.

## 1991-ci il

**21 YANVAR –** Mərzili kəndi atəşə tutulur.

**25 YANVAR –** Ağdamdan Xocalıya gedən avtobus daşa basılır, iki nəfər yaralanır.

**26 YANVAR –** Ağdamdan Şuşaya gedən maşın karvanı daşa basılır, güllləyə tutulur. Bir maşın yandırılır, üç nəfər yaralanır.

**7 FEVRAL –** Ağdam – Mardakert yolunda avtomaşın gülləyə tutulur, bir nəfər yaralanır.

**24 FEVRAL –** Şuşadan Ağdama gedən avtobus partladılır, üç nəfər yaralanır.

**25 FEVRAL –** Gülablı kəndi yaxınlığında iki nəfərin girov götürülməsinə cəhd göstərilir, bir nəfər isə vəhşicəsinə qətlə yetirilir.

**2 MART –** Cinli kəndinə hücum edilir, Füzuli – Ağdam yolunda "Jiquli" avtomaşını atəşə tutulur, üç nəfər yaralanır.

**14 MART –** Ağdam – Şuşa marşrutu ilə işləyən avtobus atəşə tutulur. Üç nəfər həlak olur, iki nəfər yaralanır.

**16 APREL –** Ağdamdan Füzuliyə gedən "Moskviç -412" avtomaşını atəşə tutulur, iki nəfər həlak olur, iki nəfər yararalanır.

**29 Aprel –** Ağdam – Füzuli yolunun 34-cü kilometrliyində avtomobil körpüsü partladılır.

**7 MAY –** Mərzili kəndinin bir nəfər sakini girov götürülür.

**18 MAY –** Ağdam rayonunun Qarağacı adlanan ərazisində yerləşən hərbiçilər atəşə tutulur.

**29 MAY –** Ağdamdan Şuşaya gedən maşın karvanından Xankəndi yaxınlığında iki avtobus partladılır.

**30 MAY –** Əliağalı kəndinə hücum edilir. İki nəfər yaralanır, üç nəfər girov götürülənlər buraxılır.

**2 İYUN –** Gülablı kəndi atəşə tutulur. Bir nəfər yaralanaraq xəstəxanada keçinir.

**24 AVQUST –** Şotlanlı kəndi atəşə tutulur, bir nəfər yaralanır.

**10 SENTYABR –** Rayondan 900 baş qoyun ermənilər tərəfindən oğurlanır.

**13 SENTYABR –** Ağdam rayonuna pənah gətirmiş bir nəfər qaçqın ermənilər tərəfindən öldürülür.

**20 SENTYABR –** Abdal kəndi atəşə tutulur.

**24 SENTYABR –** Gülablı kəndinin yaxınlığında "UAZ -469" markalı avtomobil atəşə tutulur. Bir nəfər həlak olur, bir nəfər yaralanır.

**4 OKTYABR –** Cinli, Qalayçılar, Papravənd və Xıdırlı kəndləri atəşə tutulur.

**6 OKTYABR –** Abdal – Gülablı kəndi atəşə tutulur. Gülablıda iki nəfər yaralanır.

**7 OKTYABR –** Cinli kəndi atəşə tutulur.

**8 OKTYABR –** Abdal – Gülablı kəndi atəşə tutulur.

**17 OKTYABR –** Cinli kəndi atəşə tutulur.

**21 OKTYABR –** Xaçındərbənd kəndi atəşə tutulur. İki naxırçı yaralanır, mal – qaranın bir hissəsi aparılır.

**23 OKTYABR –** Ağdamdan Şuşaya gedən avtomobil atəşə tutulur. Bir nəfər yaralanır, bir nəfər həlak olur.

**24 OKTYABR –** Cinli kəndi atəşə tutulur.

**10-11 NOYABR –** Abdal – Gülablı kəndi atəşə tutulur.

**11 NOYABR –** Ağdamdan Xocalıya uçan "Mİ - 8" vertolyotu vurulur. Vertolyotu Xocalıya endirmək mümkün olur.

**11-12 Noyabr –** Abdal – Gülablı kəndi atəşə tutulur.

**19 NOYABR –** Bir sıra rayonlarda, o cümlədən, Ağdam rayonunda ərazi özünümüdafiə qüvvələrinin təşkil edilməsi haqqında müdafiə naziri əmr verir.

**21 NOYABR –** Abdal – Gülablı kəndi atəşə tutulur, üç nəfər yaralanır.

**29 NOYABR –** Ağdam – Cəmilli reysi ilə uçan vertolyot Cəmilli yaxınlığında atəşə tutulur.

Xramort kəndi yaxınlığında Xıdırlı kəndinin bir sakini yaralanır, otardığı mal – qara oğurlanır, Əhmədavar, Çuxurməhəllə və Xıdırlı kəndləri atəşə tutulur.

**2 DEKABR -** Abdal – Gülablı kəndi atəşə tutulur. İki nəfər yaralanır.

**3 DEKABR –** Papravənd kəndinə hücum edilir. Düşmən geri oturdulur.

**6 DEKABR –** Ağdam – Qaradağlı marşrutu ilə uçan vertolyot atəşə tutulur.

**11 DEKABR –** Şelli və Şotlanlı kəndlərinə basqın edilir.

**12 DEKABR –** Əhmədavar, Şelli, Xıdırlı, Çuxurməhlə, Qalayçılar kəndləri atəşə tutulur. İki nəfər həlak olur, beş nəfər yaralanır.

**15 DEKABR –** Gülablı və Əliağalı kəndlərinə silahlı basqın edilir.

**17 DEKABR –** Şelli kəndi atəşə tutulur. Bir nəfər yaralanır.

**19 DEKABR –** Xocalı – Ağdam reysi ilə uçan vertolyota atəş açılır, Şotlanlı kəndi atəşə tutulur, bir neçə ev zədələnir.

**25 DEKABR -** Papravənd kəndi atəşə tutulur.

## 1992-ci il

**1 YANVAR –** Əhmədavar və Çuxurməhlə kəndlərinə hücum edilir, 2 nəfər həlak olur, 2 nəfər yaralanır.

**2 YANVAR –** Çuxurməhlə, Xıdırlı, Şelli, Gülablı kəndləri atəşə tutulur, Əhmədavar kəndində 2 nəfər yaralanır.

**4 YANVAR –** Papravənd kəndi atəşə tutulur.

**5 YANVAR –** Mərzili kəndi yaxınlığında yerləşən milis postu atəşə tutulur. 1 nəfər yaralanır.

**7 YANVAR –** Ağdamdan Qaradağlı kəndinə uçan vertolyot iki dəfə atəşə tutularaq zədələnir.

**12 YANVAR –** Ağdamdan Qaradağlı kəndinə uçan vertolyot atəşə tutulur, yaralanlar olur.

**14 YANVAR –** Gülablı kəndi atəşə tutulur.

**21 YANVAR –** Cinli və Xıdırlı kəndlərinə basqın edilir. Bir nəfər həlak olur.

**22 YANVAR –** Papravənd kəndinin yaxınlığındakı Azərbaycan Silahlı Qüvvələrinin postuna ermənilər vertolyotdan həmlə edir, yaralanlar var.

**29 YANVAR -** Rayonun bir sıra kəndləri atəşə tutulur, yanacaqdoldurma məntəqəsinə raket düşür, partlayış nəticəsində bir nəfər həlak olur.

**30 YANVAR –** Papravənd kəndinə basqın edilirş

**31 YANVAR –** Xromort – Fərrux istiqamətində əməliyyat keçirilir. Fərrux kəndi ermənilərdən azad edilir.

**9 FEVRAL –** Cinli kəndi atəşə tutulur.

**13 FEVRAL –** Mərzili, Abdal – Gülablı, Şelli və başqa kəndlər atəşə tutulur.

**13 FEVRAL –** Ağdam şəhərinin mərkəzi meydanında mitinq keçirilir.

**18 FEVRAL –** Şelli kəndinə basqın edilir. Üç nəfər girov götürülür, iki yüz baş qoyun aparılır, Ağdam rayonu ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti fərman verir.

**24 FEVRAL –** Ağdam rayonunun Qarağacı sahəsində yerləşən milis postu atəşə tutulur, on altı nəfər yaralanır.

**26 FEVRAL –** Ağdam özünümüdafiə qüvvələri Xocalı sakinləri xilas etmək məqsədi ilə əməliyyat keçirirlər.

**28 FEVRAL –** Şotlanlı kəndi atəşə tutulur.

**28 FEVRAL –** Ağdam şəhəri atəşə tutulur, dağıntılar olur, iki nəfər həlak olur, iki nəfər yaralanır.

**1-2 MART –** Xocalı şəhidləri Ağdam qəbiristanlığında dəfn edilir. Meyidlər və girovların geri qaytarılması üçün tədbirlər görülür.

**4 MART –** Ermənilər Gülablı kəndinin tərk edilməsi haqqında kənd əhalisinə ultimatum verir. Ağdam özünümüdafiə qüvvələri Ağdərə rayonunun Qazançı kəndini azad edir.

**6 MART –** Şelli kəndi atəşə tutulur. Bir nəfər həlak olur, üç nəfər yaralanır, bir ev yerlə - yeksan edilir, bir neçə ev dağıntiya məruz qalır.

**7 MART –** Ağdam aeroportu, Qalayçılar kəndi atəşə tutulur.

**8 MART –** Ağdam şəhəri atəşə tutulur, bir nəfər həlak olur.

**8 MART –** Şelli kəndi yaxınlığındakı milis postuna basqın edilir, ölən və yaralananlar olur.

**9 MART –** Şelli kəndi atəşə tutulur, yaralananlar olur.

**10 MART –** Şelli kəndi atəşə tutulur.

**11 MART –** Şelli kəndinə basqın edilir, dağıntı və zərərçəkənlər var.

**12 MART –** Ağdam şəhəri atəşə tutulur, 28 nəfər həlak olur, 60-dan çox adam yaralanır. 15-dən çox bina və ev dağıdılır. Qarağacı qəbiristanlığında döyüşlər gedir.

**12 MART –** Şelli, Qalayçılar kəndləri atəşə tutulur. Şellidə bir nəfər həlak olur. Əhmədavar kəndi, Qaraqaya milis postu və Ağdam şəhəri silahlı basqınlara məruz qalır, ölən və yaralananlar, dağıntılar olur. Xramort və Xanabad kəndləri ətrafında döyüşlər davam edir.

**13 MART –** Ağdam şəhəri atəşə tutulur, 3 nəfər həlak olur, 10 nəfər yaralanır.

**14 MART –** Gecə Ağdam şəhəri atəşə tutulur.

**14 MART –** Şelli kəndi daim atəş altındadır.

**15 MART –** Ağdam şəhəri atəşə tutulur.

**15 MART –** Şelli və Qalayçılar kəndləri atəşə tutulur, Qalayçılar, Əliağalı, Cinli, Əlimədədli, Papravənd kəndlərinə hücum edilir, döyüşlər gedir. Dağıntılar var.

**16 MART –** Ağdam şəhər qəbiristanlığı ərazisində atışma baş verir.

**16 MART –** Şelli kəndi atəşə tutulur.

**18 MART –** Ağdam şəhəri atəşə tutulur. Şelli kəndindəki və Qarağacı qəbiristanlığı yaxınlığındakı postlar dağıdılır. Qalayçılar, Əliağalı, Papravənd, Cinli və Şotlanlı kəndlərində səhərə qədər atışma davam edir.

**19 MART –** Qalayçılar, Əliağalı, Papravənd, Cinli və Şotlanlı kəndlərində ara – sıra atışmalar olur.

**20 MART –** BMT –nin Baş katibinin xüsusi elçisi S. Velns Ağdama gəlir. Şelli və Gülablı kəndləri atəşə tutulur.

**22 MART –** Muğanlı kəndinə basqın edilir, bir nəfər ölür, 200 başa yaxın mal – qara aparılır. Abdal – Gülablı, Cinli, Qalayçılar kəndləri atəşə tutulur.

**23 MART –** Ağdam şəhəri, Gülablı Şelli, Papravənd və Abdal kəndləri atəşə tutulur. 15-dək ev dağıdılır, yaralananlar olur.

**24 MART –** Mərzili kəndi atəşə tutulur, bir neçə bir dağıdılır, Abdal – Gülablı, Şelli, Əliağalı və Qalayçılar kəndlərində atışma olur.

**24 MART –** Papravənd, Şelli, Əhmədavar və Çuxurməhlə kəndləri, Ağdam müdafiəçilərinin mövqeləri atəşə tutulur, üç nəfər yaralanır.

**25 MART –** Qalayçılar kəndi atəşə tutulur.

**25 MART –** Ağdamla Əsgəran arasındakı post dağıdılır, düşmən əks – hücumla geri oturdulur.

**25 MART –** Şelli, Əhmədavar, Çuxurməhlə və Gülablı kəndləri atəşə tutulur. Martın 26-na keçən gecə - Ağdam şəhəri, Şelli kəndi atəşə tutulur, dağıntılar olur.

**26 MART –** Əliağalı, Papravənd və Cinli kəndlərində atışma baş verir.

**27 MART –** Şelli kəndi atəşə tutulur.

**28-30 MART –** Şelli və Gülablı kəndləri atəşə tutulur.

**31 MART –** Əliağalı, Cinli, Qalayçilar və Papravənd kəndləri atəşə tutulur.

**APRELİN 1—**nə keçən gecə - Şelli, Gülablı, Qalayçılar və Yeni Qaralar kəndləri atəşə tutulur.

**1 APREL –** Abdal – Gülablı kəndi atəşə tutularaq hücuma məruz qalır, 3 nəfər yaralanır, 15-ə yaxın ev dağıdılır.

**2 APREL –** Düşmən Abdal – Gülablı kəndindən geri oturdulur, Papravənd kəndi atəşə tutulur, bir nəfər həlak olur, bir nəfər yaralanır, Şelli kəndi atəşə tutulur.

**3 APREL –** Şelli kəndi atəşə tutulur.

**7 APREL –** Abdal – Gülablı kəndi atəşə tutulur.

**10 APREL –** Şelli, Gülablı, Əliağalı, Qalayçılar, Şotlanlı və Papravənd kəndləri atəşə və basqına məruz qalır.

**11-13 APREL –** Papravənd, Boyəhmədli, Yeni Qaralar kəndləri şiddətli atəşə tutulur. 3 ev Boyəhmədlidə, 8 ev Papravənddə dağıdılır. Papravəndə yenidən hücum edilir, Döyüşlərdən sonra düşmən geri oturdulur. 5 nəfər yaralanır.

**12 APREL –** Şelli, Abdal – Gülablı kəndləri atəşə tutulur.

**13 APREL –** Güllücə, Boyəhmədli və Şotlanlı kəndləri atəşə tutulur.

**APRELİN 16-** na keçən gecə - Şelli və Gülablı kəndləri atəşə tutulur.

**17 APREL –** Şelli kəndi atəşə tutulur.

**27-28 APREL –** Gülablı kəndi atəşə tutulur, 15 ev dağıdılır, 1 nəfər yaralanır.

**APRELİN 28-**nə keçən gecə - Əliağalı, Qalayçılar, Şotlanlı kəndləri atəşə tutulur.

**APRELİN 29-**na keçən gecə rayonun bir sıra yaşayış məntəqələri atəşə tutulur. Dağıntılar və zərərçəkənlər var.

**APRELİN 30-**na keçən gecə - Xocavənd rayonunun Əmirallar kəndinə olunan hücum Ağdam özünümüdafiə qüvvələrinin köməyi ilə dəf edilir.

**3-5 MAY –** Ağdam şəhərində Qarabağın müdafiəsi uğrunda döyüşən hərbi hissə komandirlərinin müşavirəsi keçirilir.

**MAYIN 5-**nə keçən gecə - Şelli, Çuxurməhlə və Xıdırlı kəndləri atəşə tutulur.

**8 MAY –** Ağdam şəhəri və rayonun Qarabağla həmsərhəd kəndləri atəşə tutulur, Ağdam istiqamətindən hücum əməliyyatı keçirilərək bəzi kəndlər ermənilərdən azad edilir.

**10 MAY –** Ağbulaq, Pircamal uğrunda döyüşlər gedir.

**11 MAY –** Naxçıvanik kəndi uğrunda döyüşlər aparılır, bütün cəbhə boyu şiddətli döyüşlər gedir, Ağdam şəhəri atəşə tutulur, 10-dan çox ev dağıdılır.

**12 MAY –** rayonun mərkəzi, Şelli, Əhmədavar, Xıdırlı, Abdal – Gülablı və Qalayçılar kəndləri atəşə tutulur, dağıntı və yaralananlar var.

**13 MAY –** Ağdam şəhəri. Gülablı kəndi atəşə tutulur.

**14-15 MAY –** Xıdırlı kəndi atəşə tutularaq hücuma məruz qalır.

**15 MAY –** Abdal – Gülablı kəndi atəşə tutularaq hücuma məruz qalır. Kəndlərin bir hissəsi düşmən əlinə keçir, evlər və tikintilər yandırılır.

**16 MAY –** Azərbaycan Silahlı Qüvvələri cəbhənin bəzi istiqamətlərindən düşmənə zərbələr endirilir.

**17 MAY –** Ağdam şəhəri, Əhmədavar, Şelli, Gülablı, Qaybalı kəndləri atəşə tutulur.

**19 MAY –** rayon mərkəzi və ətraf kəndlər atəşə tutulur.

**25 MAY –** Ağdam rayonunun bir sıra yaşayış məntəqələri atəşə tutulur, dağıntı və tələfat var.

**30 MAY –** Gülablı, Papravənd, Şelli və Əhmədavar kəndləri atəşə tutulur. 3 nəfər yaralanır.

**31 MAY –** Gülablı, Şelli, Papravənd və digər kəndlər atəşə tutulur.

**12 İYUN –** Ağdam özünümüdafiə qüvvələri tərəfindən Sırxavənd, Orta və Baş Güneytəpə, Kiçan, Bəşirlər, Manikli və Qaraşlar kəndləri azad edilir.

**12 İYUN –** Şəhərətrafı postlar, Gülablı, Şelli və Papravənd kəndləri atəşə tutulur.

**12 İYUN –** Aödam özünümüdafiə qüvvələri tərəfindən Aranzəmin, Purcamal, Naxçıvanik kəndləri azad edilir.

**13 İYUN –** Əsgəran rayonunun Dəhraz kəndi uğrunda döyüşlər gedir.

**15 İYUN –** Azad edilmiş kəndlərdə Azərbaycan Silahlı Qüvvələri möhkəmlənir. Əsgəran və Xanabad uğrunda döyüşlər gedir.

**18-21 İYUN –** Qaralar kəndi uğrunda döyüşlər gedir.

**21 İYUN –** Cinli, Əliməddli, Qalayçılar kəndləri atəşə tutulur.

**29 İYUN –** Papravənd kəndinə hücum edilir.

**1 İYUL –** Şelli və Çuxurməhlə kəndləri atəşə tutulur. Şellidə 4 ev dağıdılır, 3 nəfər yaralanır.

**İYULUN 2-**nə keçən gecə - Abdal – Gülablı, Qiyaslı, Xıdırlı, Naxçıvanik kəndləri atəşə tutulur.

**İYULUN 6-**na keçən gecə rayonun kəndləri atəşə tututlur. Düşmən Pircamal və Naxçıvanik kəndlərinə daxil olmağa səy göstərir, Yeni Qaralar kəndində vəziyyət sabitləşir, Azərbaycan Silahlı Qüvvələri azad olunmuş Naxçıvanik kəndini tərk edirlər.

**7 İYUL –** Şelli. Qasımlı və Muğanlı kəndləri hərbi vertolyotdan atəşə tutulur. Dağıntılar, ölən və yaralananlar var.

**13 İYUL –** Abdal – Gülablı, Şelli və Xıdırlı kəndləri atəşə tutulur.

**İYULUN 16-**na keçən gecə Mərzili. Novruzlu, Əhmədavar, Şelli, Abdal – Gülablı və Çuxurməhlə kəndləri atəşə tutulur.

**İyulun 22 –**nə keçən gecə Əliağalı, Yeni Qaralar və Ağdam şəhəri atəşə tutulur.

**İYULUN 27-nə** keçən gecə Ağdam şəhəri, Çuxurməhlə, Əhmədavar və Xıdırlı kəndləri atəşə tutulur.

**İYULUN 28 –nə** keçən gecə Ağdam şəhəri, Xıdırlı, Əhmədavar, Əliağalı, Papravənd, Qalayçılar kəndləri atəşə tutulur.

**28 İYUL –** Ağdam şəhəri, Çuxurməhlə, Xıdırlı, Gülablı kəndləri atəşə tutulur.

**29 İYUL –** rayon mərkəzi, Abdal – Gülablı, Əhmədavar, Papravənd, Çuxurməhlə, Qalayçılar, Şelli, Əliağalı kəndləri atəşə tutulur.

**4 AVQUST –** Abdal – Gülablı kəndi atəşə tutulur.

**AVQUSTUN 6-na** keçən gecə Ağdam şəhəri, Sarıhacılı, Xıdırlı və Əhmədavar kəndləri atəşə tutulur.

**11 AVQUST –** rayonun bir sıra kəndləri atəşə tutulur.

**14 AVQUST –** rayon mərkəzi, Gülablı və Pircamal, Şelli, Əliağalı və Papravənd kəndləri atəşə tututlur. Dağıntılar, ölən və yaralananlar var.

**AVQUSTUN 16-na** keçən gecə Ağdam şəhəri və rayonun Dağlıq Qarabağla bitişik kəndləri atəşə tutulur.

**AVQUSTUN 17-nə** keçən gecə Ağdam şəhəri və rayonun Dağlıq Qarabağla həmsərhəd kəndləri atəşə tutulur.

**AVQUSTUN 18-nə** keçən gecə rayon mərkəzi, Abdal – Gülablı kəndləri atəşə tutulur.

**AVQUSTUN 24-nə** keçən gecə Abdal – Gülablı kəndi atəşə tutulur. Tələfat və dağıntılar var.

**AVQUSTUN 25-nə** keçən gecə rayonun bəzi kəndləri atəşə tutulur.

**AVQUSTUN 26-na** keçən gecə rayon mərkəzi, Yuxarı Qarabağa bitişik kəndlər atəşə tutulur.

**SENTYABRIN 2-nə** keçən gecə rayonun bəzi kəndləri atəşə tutulur. Dağıntılar ölən və yaralananlar var.

**SENTYABRIN 4-nə** keçən gecə Abdal – Gülablı kəndi işğal edilir.

**8 SENTYABR –** rayonun yaşayış məntəqələri atəşə tutulur.

**SENTYABRIN 16-na** keçən gecə Ağdam şəhəri və rayonun bir sıra kəndləri atəşə tutulur.

**SENTYABRIN 18-nə** keçən gecə rayonun yaşayış məntəqələri atəşə tutulur.

**23 SENTYABR –** Abdal – Gülablı kəndini azad etmək üçün əməliyyata başlanılır.

**24 SENTYABR –** Fərrux kəndi və Daşbaşı yüksəkliyi döyüşçülərimiz tərəfindən ələ keçirilir.

**25 SENTYABR –** Abdal – Gülablı kəndinə hücum edən qüvvələr geri çəkilir. Xanabad uğrunda döyüşlər gedir.

**28 SENTYABR –** Ağdam şəhəri, Əliağalı, Əlimədədli. Xaçındərbənd, Mollalar, Kürdlər kəndləri atəşə tutulur. Yaralananlar və yanğınlar var. 20-dən çox ev dağıdılır.

**29 SENTYABR –** Ağdam şəhəri, Mərzili, Bağbanlar və Novruzlu kəndləri atəşə tutulur. Xanabad və ətraf yüksəkliklər uğrunda döyüşlər davam etdirilir.

**1 OKTYABR –** Ağdam şəhəri, Əliağalı, Əlimədədli, Xaçındərbənd, Mollalar, Kürdlər və digər kəndlər atəşə tutulur. Düşmən əks- zərbə ilə geri oturdulur.

**2 OKTYABR –** rayon mərkəzi, Dağlıq Qarabağla həmsərhəd kəndlərimiz atəşə tutulur, dağıntılar var.

**3 OKTYABR –** Ağdam şəhəri, Mərzili, Bağbanlar və Novruzlu kəndləri atəşə tutulur, ölən və yaralananlar var.

**12 OKTYABR –** Ağdam və Xocavənd istiqamətində işğal olunmuş kəndlərimizi geri qaytarmaq uğrunda döyüşlər gedir.

**14 OKTYABR –** Ağdam şəhəri, rayonun bir sıra kəndləri atəşə tutulur.

**OKTYABRIN 15-nə** keçən gecə Ağdam rayonunda ermənilərin zəbt etdiyi ərailərin azad edilmə əməliyyatları davam etdirilir.

**23 OKTYABR –** Ağdam şəhəri, Əlimədədli, Əliağalı, Xaçındərbənd, Mollalar, Kürdlər kəndləri atəşə tutulur. Ölən və yaralananlar var.

**25-26 OKTYABR –** Ağdam şəhəri, Əlimədədli, Əliağalı, Xaçındərbənd, Mollalar, Kürdlər kəndləri atəşə tutulur. Çoxlu dağıntılar var.

**27 OKTYABR –** Ağdam şəhəri, Əliağalı, Əlimədədli, Mollalar. Cinli kəndləri atəşə tutulur. Dağıntı, ölən və yaralananlar var.

**29 OKTYABR –** Ağdam şəhəri atəşə tutulur. 3 nəfər həlak olur, dağıntılar var.

**29 OKTYABR – 2 NOYABR –** Fərrux, Xanabad və Sırxavənd məntəqələri uğrunda irimiqyaslı hərbi əməliyyat keçirilir. Əməliyyatda qarşıya qoyulan məqsədlərə nail olunmur.

**9 NOYABR –** Ağdam şəhəri, bir sıra kəndlər atəşə tutulur.

**23-24 NOYABR –** Azərbaycan Respublikasının Prezidenti Ağdama olur.

**2 DEKABR –** Ağdam şəhəri atəşə tutulur, ölən və yaralananlar var.

**3 DEKABR –** Ağdam şəhəri, bir sıra kəndlərimiz atəşə tutulur.

**6 DEKABR –** Mərzili kəndi işğal edilir.

**6-18 DEKABR –** Ağdam ətrafında döyüşlər gedir.

**DEKABRIN 7-nə** keçən gecə Ağdam şəhəri və ətraf kəndlər atəşə tutulur, zərərçəkənlər var.

**7 DEKABR –** Mərzili kəndi düşməndən azad edilir.

**DEKABRIN 14-nə** keçən gecə Ağdam cəbhəsində atışmalar baş verir.

**30 DEKABR –** rayonun kəndləri istiqamətində hücum edilir.

## 1993-cü il.

**3 YANVAR –** Ağdam rayon ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti fərman verir.

**19 YANVAR –** Ağdam şəhəri atəşə tutulur. 2 nəfər həlak olur, yaralananlar var.

**20 YANVAR –** Ağdam şəhəri atəşə tutulur.

**24 YANVAR –** Ağdam şəhəri atəşə tutulur. Ağdamdakı hərbi hissələrin birində partlayış baş verir. Ölən və yaralananlar var.

**26 YANVAR –** Fərrux dağ yüksəkliyi ətrafında döyüşlər gedir.

**27 YANVAR –** Ağdam şəhəri, Muğanlı, Bağbanlar kəndləri atəşə tutulur. Dağıntı var.

**FEVRALIN 2-nə** keçən gecə Mərzili kəndi atəşə tutulur.

**4 FEVRAL –** Ağdam şəhəri atəşə tutulur.

**5 FEVRAL –** Mərzili kəndi atəşə tutulur.

**6 FEVRAL –** Azərbaycan Respublikasının Prezidenti "Ağdam rayonu ərazisində fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman verir.

**FEVRALIN 9-na** keçən gecə bütün cəbhə boyu vəziyyət kəskin surətdə gərginləşir. Düşmən Ağdam və Xocavənd rayonları istiqamətində hücumlar edir. Hücum Şellidə dayandırılır.

**9 FEVRAL –** Düşmən Ağdam bölgəsində Şelli, Xramort və Ergi istiqamətində cəbhə xəttinin yarılmasına cəhd göstərir. Ergi düzündə döyüşlər gedir, Papravənd, Şahbulaq, Boyəhmədli kəndləri və rayon mərkəzi atəşə tutulur. Xeyli yaralananlar var.

**FEVRALIN 14-nə** keçən gecə Ağdam rayonunun ərazisi atəşə tutulur.

**16-17 FEVRAL –** Ağdam rayonunun mərkəzi atəşə tutulur. Ölən, yaralanan və dağıntılar var.

**17 FEVRAL –** Düşmən Şelli istiqamətindən hücum etməyə cəhd göstərir.

**21 FEVRAL –** Düşmən Ağdam cəbhəsinin Şelli və Ergi istiqamətindən hücuma keçir. Şelli ətrafında şiddətli döyüşlər gedir.

**22 FEVRAL –** Ağdam şəhəri atəşə tutulur. Şelli və Mərzili kəndlərinə hücumlar dəf edilir.

**23 FEVRAL –** Xramort kəndi istiqamətində mövqe döyüşləri davam edir. Manikli kəndindəki mühüm Sığnaq yüksəkliyi atəşə tutulur. Həlak olanlar var.

**28 FEVRAL –** Ağdam rayonunun Mərzili və Füzuli rayonunun Aşağı Veysəlli kəndindən olan altı girov dəyişdirilir.

**MARTIN 4-nə** keçən gecə Xocavənd rayonundakı Qaraçuq dağı istiqamətindən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə müvəffəqiyyətsiz hücum edilir.

**6 MART –** Azərbaycan Respublikasının Prezidenti "Ağdam rayonu ərazisində fövqəladə vəziyyət rejiminin uzadılması haqqında" fərman verir.

**12 FEVRAL –** Canyataq və Gülyataq istiqamətində mövqe döyüşləri gedir.

**15 MART –** Xramort ətrafında gərgin döyüşlər gedir.

**19-22 MART –** Düşmən tərəfindən Papravənd kəndi istiqamətində hücuma cəhd göstərilir. Kənd uğrunda, Canyataq və Gülyataq istiqamətində döyüşlər gedir.

**5 APREL –** Yuxarı Qarabağla həmsərhəd kəndlər o, cümlədən, Ağdam ərazisi atəşə tutulur.

**APRELİN 14-nə** keçən gecə Xocavənd ərazisi istiqamətindən Ağdam rayonu ərazisinə hücum edilir. Düşmənin hücumu dayandırılır. Dörd nəfər həlak olur, yeddi nəfər yaralanır.

**APRELİN 16-na** keçən gecə Əliağalı kəndinə hücum edilir. Düşmən geri oturdulur. İki nəfər həlak olur, yeddi nəfər yaralanır.

**8 MAY –** Fərrux kəndi ətrafındakı yüksəklikləri tutmaq uğrunda döyüşlər gedir.

**11 İYUN –** Ermənistan Silahlı Qüvvələri güclü artilleriya hazırlığından sonra Ağdam və Ağcabədi istiqamətində hücuma keçir. Bir neçə kəndimiz, o cümlədən, Mərzili kəndi işğal olunur.

**12 İYUN –** Düşmən Ağdam şəhərinə, rayonun Şelli, Mərzili, Yusifcanlı, Cinli, Yeni Qaralar, Əliağalı kəndlərinə irimiqyaslı hücuma keçir. Bir müddət sonra döyüşlər Ağdam rayonunun Əlimədədli və Xaçındərbənd kəndləri ətrafında gedir.

**15 İYUN –** Əlimədədli, Qalayçılar, Əliağalı kəndləri istiqamətində düşmən güclü hücuma keçir. Cinli, Qalayçılar, Əlimədədli və Əliağalı kəndləri işğal edilir. Günün ikinci yarısında Əlimədədli azad edilir. Döyüşlər Qalayçılar və Kürdlər kəndləri yaxınlığında davam edir.

**17 İYUN –** Ermənistan Silahlı Qüvvələrinin rayona hücumu davam edir. Düşmən Ağdam və Ağdərə yolunu kəsməyə can atır. Ağdam şəhəri və ətraf kəndlər atəşə tutulur.

**28 İYUN –** Döyüşlər Ağdam şəhərinin 5 kilometrliyində gedir. Şəhər güclü atəşə tutulur.

**29 İYUN –** Qızıllı – Kəngərli, Xramort kəndləri ətrafında döyüşlər gedir. Cəbhə xətti Ağdamın 2 kilometrliyindən keçir.

**30 İYUN –** Şəhər güclü atəşə tutulur. Xeyli ölən və yaralanan var.

**4 İYUL –** rayonun Şıxbabalı. Muğanlı, Saybalı, Bağbanlar, İsmayılbəyli. Pirzadlı, Mərzili, Yusifcanlı, Novruzlu və digər bir neçə kənd işğal edilir.

**5 İYUL –** Azərbaycan Silahlı Qüvvələri Ağdamdakı hərbçilərin köməyi ilə birlikdə rayonun Qasımlı, Muğanlı. Poladlı kəndlərini azad edir. İsmayılbəyli və Bağbanlar uğrunda döyüşlər gedir.

**6 İYUL –** Ağdam şəhəri istiqamətində güclü hücum edilir.

**7 İYUL –** rayonun cənub tərəfində döyüşlər ara vermədən davam edir.

**8 İYUL –** düşmənin yeni hücumu nəticəsində Şelli, Qasımlı, Saybalı kəndləri yenidən işğal edilir. Ağdam şəhərinin qərb istiqamətindəki mövqeləri ələ keçirilir.

**10 İYUL –** Ağdam şəhəri atəşə tutulur, dəmir yolu xətti dağıdılır.

**11 İYUL –** rayonda vəziyyət gərgin olaraq qalır, döyüşlər gedir.

**12 İYUL –** ATƏM- in Minsk qrupunun sədri M. Rafaelli Ağdam şəhərində olur.

**15 İYUL –** rayonda hakimiyyət çevrilişi gedir.

**15 – 20 İYUL -** Düşmən strateji əhəmiyyətli Yeddi Xırman dağını da ələ keçirir. Xıdırlı, Qiyaslı və Seyidli kəndlərini yandırır.

**16 İYUL –** Ağdam bölgəsində döyüşlər gedir.

**19 İYUL –** Novruzlu kəndi atəşə tutulur.

**21 İYUL -** Ermənistan Silahlı Qüvvələri güclü raket – artilleriya hazırlığından sonra Ağdam şəhəri üzərinə yenidən irimiqyaslı hücuma keçir. Üç istiqamətdən hücum edən düşmən günortaya yaxın şəhərin cənubundakı Muğanlı və Şıxbabalı kəndlərini işğal edir, şəhərdə çoxlu dağıntı və tələfat var. Çuxurməhlə. Əhmədavar kəndlərində şiddətli döyüşlər gedir, şəhər tam mühasirəyə alınır.

**22 İYUL –** Ağdam şəhərinə irimiqyaslı hücum davam edir. Şəhərin qərb istiqaməti ələ keçirilir. İlkin məlumata görə 40 nəfər dinc sakin həlak olur. 100-dən çox adam yaralanır. Qiyaslı, Xıdırlı, Sarıcalı, Muradbəyli kəndləri işğal edilir və düşmən şəhərə soxulur, eyni zamanda cənub istiqamətində Novruzlu, Yusifcanlı kəndləri zəbt edilir.

**23 İYUL –** gün ərzində Ağdamın mərkəzində küçə döyüşləri gedir. Saat 17.00 radələrində şəhər işğal edilir...

# III FƏSİL

## ƏGƏR ŞƏHİD VARSA, DEMƏK, VƏTƏN VAR...

... Allah yolunda canını fəda edən müsəlmana şəhid deyilir. Bu sözün cəm halı şühədadır.

Şəhidliyin çox yüksək məqam olduğu, şəhidin Allah yanında böyük nemətlərə qovuşacağı "Qurani – Kərim"də də açıq aydın göstərilməkdədir: "Allah yolunda öldürülən kəslərə ölülər deməyin. Həqiqətən, onlar diridirlər, fəqət siz bu gerçəyi hiss edə bilməzsiniz".

Şəhidlik Allah hökmü deyil. O, ürəyin hökmüdür, damarda axan qeyrət dolu qanın əmridir.

Hər yetən ölüm şəhidlik deyil. Şəhidlik haqq yolunda qazanılan ölümdür.

İman sahibi üçün şəhid olmaq böyük nemətdir. Hələ ilk islam mücahidləri qələbə üçün düşmənlə döyüşə atılmış, ölərsə, şəhid, qalarsa, qazi olacaqlarına inanmışlar.

İnsan uğrunda can verdiyi həqiqətə inanmasa, məqsədinə yetişə bilməz. Ona görə də bu yola baş vuran hər kəs ilk növbədə, bu gerçəkliyə inanmalıdır.

Tarixdən çox ibrətli bir misal gətirək: "İslam yolunda on illərlə qılınc çalmış bir qəhrəman xəstələnib, ölüm yatağına düşür. Ziyarətinə gələnlər onun hönkür- hönkür ağladığını görürlər. Səbibini soruşanda: - Mən başımının tükü sayda cihada qatıldım. Hər dəfə də şəhid olmağı aruladım. İşə baxın ki, indi bu yataqda dəvə kimi üzüqoylu düşərək can verirəm! - deyir".

Bəli, bu dünyada oxla dəlinib, qılıncla paralanaraq şəhidlik məqamına yüksəlmək arzusu ilə yaşayan bir qəhrəman bu istəyinə qovuşmadığı üçün son ayaqda hönkürürdü.

Ulularımızdan birisi: "Kaş ki, Allah yolunda öldürüləydim, sonra dirilib, yenidən şəhid olaydım, sonra dirilib, yenə şəhid olaydım!" – deməklə şəhidliyin önəmini ifadə edir.

Buyurulmuşdur ki, şəhidin namazını Həzrəti peyğəmbər qılar.Şəhidin yeri də elə peyğəmbərimizin qolları arasındadır. Şəhid öldürüldüyü yerdə dəfn olunsa, daha yaxşıdır.

Şəhidlik duyğusu imandadır. Bu gerçəyə inanan xalq, onun əsgəri məğlub olmaz. Ölər, geri durmaz.

Şəhidlər xalqın milli qürurudur, milli iftixarıdır, əzəmətidir.

Şəhidlər mənsub olduqları xalqın şərəfidir, üzağlığıdır, baş tacıdır.

Şəhidlər xalqın tarixinin sirdaşıdır, əsrin ünvanıdır.

Şəhidlər xalqın bu gündən sabaha deyəcəyi sözdür.

Şəhid adı hər bir addan ucadır. Bu adın ucalığı əlçatmazdır, ünyetməzdir. Bu adı qazananlarımızın ölümü kədər deyil, iftixardır. Bir insanın ki, yeri Həzrəti Məhəmmədin qolları arasıdır, heç onun üçün də heyfsilənmək, sızıldamaqmı olar?!

... Vətənimiz Azərbaycan zaman – zaman şəhidlər vermiş, bu duyğuya alışqan olmuşdur. Şəhidlik Azərbaycan xalqına tanış ölümdür. Xalqımızın şəhidliyinin ən yeni səhifəsi 1988-ci il fevral ayının 22-dən başlayır və tarixi müstəqilliyini bərpa etmiş xalqımız 14 ildir ki, öz əzəli mənbəyindən, qaynağından, duyğusundan güc alaraq azadlığını və müstəqilliyini, torpaqlarının toxunulmazlığını qorumaq yolunda şəhidlər verir, dünyanın böyük bir imperiyasına sübut edir ki, Azərbaycanın torpaqları toxunulmazdır, əcdadlarımızın qoruyub bizə çatdırdıqları Vətənimiz bölünməzdir.

Azərbaycan qoca Şərqin qapısıdır. Bu qapıdan keçməklə kifayətlənməyən neçə yağı düşmən tarix boyu bu qapının açarlarını ələ keçirib, dünyaya hakim olmaq niyyətilə Azərbaycanı ad – alov içərisində yaxmağa çalışmışlar. Nəticədə Vətənimizdə Azərbaycanın özü boyda bir tonqal qalamışlar. Bəlkə də, bu torpaq elə buna görə də "Odlar yurdu" adlanır.

Azərbaycanı dilim – dilim, parça – parça etmək elələrinin arzusu, bu torpağı qorumaq, onun uğrunda ölmək isə bu torpağın qeyrətli, qəhrəman övladlarının müqəddəs borcu olmuşdur. Onlar nəsildən – nəslə belə bir hikmət əmanət vermişlər:

**Sahibsiz olan bir ulusun batması haqdır,**
**Sən sahib olursan, bu Vətən batmayacaqdır!**

Azərbaycan övladı qəlbində bu sual, dilində bu nəğmə ölümün gözlərinə dik baxmış, Vətən uğrunda, ar, namus yolunda şəhidlik yolunu seçmişdir. Əvəzində Azərbaycanda Azərbaycanın özü boyda bir abidə qoyulmuşdur – **ŞƏHİDLƏR XİYABANI!**

Tariximizin, əxlaqımızın, dövlətçiliyimizin qan yaddaşı – şəhidlər. Bir də bizim biz olduğumuzu, kim olduğumuzu, təməlimizi göstərən simvolumuz – **ŞƏHİDLƏR XİYABANI!**

Bu gün Azərbaycanda elə bir şəhər, elə bir kənd, elə bir qəsəbə varmı ki, orda şəhid məzarları olmasın?!

Yaxşı ki, şəhid məzarlarımız var, yaxşı ki, qanımıza hopmuş qəhrəmanlıq abidələrimiz var, yoxsa, bu Vətənə kim sahib çıxacaqdı?

Şəhidlər Xiyabanımız olmasaydı, şəhidlərimiz olmazdı. Şəhidlərimiz olmasaydı, məmləkətimizin sahibi olmazdı. Sahibsiz məmləkətin isə övladları olmaz. Olsa, kölə olar. Övladı yadların kölәsi olan məmləkət batmış deməkdir. Lənət olsun o torpağa ki, onun Şəhidlər Xiyabanı yoxdur!

